

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 40-41 (7277-7278) ❁ Bazar, 14 iyun 2015-ci il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik


# "Bakı-2015" I Avropa Oyunlarının rəsmi açılış mərasimi keçirilib







Bakı Olimpiya Stadionunda I Avropa Oyunlarının açılış mərasimi keçirilib. Açılış mərasimində Azərbaycan, Türkiyə və Rusiya prezidentləri İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan, Vladimir Putin başda olmaqla dünyanın bir çox ölkəsinin dövlət və hökumət başçıları, yüksək səviyyəli nümayəndələri iştirak edib.

Əvvəlcə dünya şöhrətli xanəndə Alim Qasımov çıxış edib. Ardınca ritmik nağara sədaları altında 24-dən sıfıra doğru geriyə sayım başlayıb. Bu, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 24 illiyinə işarədi.

Rəqəmlər sıfıra yaxınlaşdıqca nağaraların səsi zilə qalxıb. Stadion gur işığa qərq olur və minədək rəqqasə səhnənin əsas hissəsini ətəkləri ilə örtüb. Onların ətəkləri Azərbaycanın dünyaca məşhur xalılarındakı həndəsi fiqurlarla, dekorativ naxışlarla işlənib. Rəqqasələrin paltarlarının ətəkləri 16 min kvadratmetr parçadan tikilib. Bu, 13 Olimpiya üzgüçülük hovuzu böyüklükdə parça deməkdir. Hər ətək məxsusi olaraq səhnədəki yerinə görə işlənib.

Rəqqasələrin ətəklərinin son yellənişində Azərbaycanın dövlət bayrağının obrazı yaranıb. Səhnədən göyə fişənglər atılıb. Şeypurda Dmitri Şostakoviçin "Bayram uvertürası"ndan bir parça səsləndirilib.

Daha sonra Azərbaycan Dövlət Simfonik Orkestri dövlət himnini səsləndirib və bayrağımız stadiona gətirilib. Stadionda quraşdırılan elektron tablolarda Azərbaycanı qarış-qarış dolaşmış alovun səyahət marşrutu nümayiş etdirilib. Uzunluğu 700 metr olan, arena boyu dövrələnən paneldə LED lampaları vasitəsilə alovun səyahət etdiyi məkanların adları bir-bir yazılıb.

Son məşəlçi - iki dəfə paralimpiya oyunları çempionu, iki dəfə dünya çempionu, beş dəfə Avropa çempionu İlham Zəkiyev Jan Sibeliusun "5-ci Simfoniya"sının sədaları altında I Avropa Oyunlarının məşəlini stadiona gətirib. Gənclərin Olimpiya Oyunlarında taekvondo üzrə qızıl medala layiq görülmüş Səid Quliyev onunla yanaşı addımlayıb. Onlar mərkəzə doğru hərəkət etdikləri zaman ayaqları altında cadar-cadar olan torpaq görünüb. Bu mənzərə palçıq vulkanları ətrafında Azərbaycan təbiətini göz önündə canlandırıb.

Səid Quliyev stadionun mərkəzində qaya parçasını götürüb və onun yerində çökəklik yaranıb. İlham Zəkiyev tərəfindən çökəkliyə yaxınlaşdırılan məşəl sönür, çökəklik dolub. Torpaq üzərindəki çatlardan çıxan alov qığılcımlarının axını lavanı xatırladır. Stadionun ortasından qaya parçası qaldırılıb və gələcəkdə görüləcək işlərə işıq salmaq üçün birinci məşəl torpağa basdırılıb.

Üç yüzədək ifaçı səhnə ətrafındakı halqada görünüb. Qədim tarixə malik miniatür sənətinin yaratdığı obrazlar səhnədə göründükcə halqanın ətrafı rənglə dolub. İfaçılar səhnəni göz önündə canlandırıblar.

Halqa tam dövrə vurduqdan sonra yerdən nar ağacı boy verib qalxıb. Nizami ağacdan bir nar dərib. Qəfil hər şey donub. Nizaminin ətrafındakı miniatürlər dünyası yerə bataraq yoxa çıxıb, tərəzi uzaqlaşıb və ifaçılar səhnəni tərk edib.

Stadionun mərkəzinə doğru uçan, bolluq, oyanış, sevgi, uğur mücəssəməsi olan və Azərbaycanı rəmzləşdirən nəhəng bir nar görünüb. Nar paralanıb və onun dənələri - yaquta bənzər yüzlərlə şar stadion ətrafında uçmağa başlayıb. Uçan nar dənələri sanki idmançıları salamlayırmış kimi, təntənəli bayram əhval-ruhiyyəsi yaradıb.

Bundan sonra idmançıların paradı başlayıb. Bu mərasim 50 təbilçinin çaldığı gurultulu təbil sədaları ilə müşayiət olunub. İlk olaraq Olimpiya Oyunlarını dünyaya bəxş etmiş ölkənin-Yunanıstanın idmançıları səhnəyə daxil olub. Daha sonra qalan 49 ölkənin idmançıları stadiona daxil olub. Azərbaycan yığması son olaraq gəlib.

İdmançılar mərkəzi səhnə ətrafında təntənəli şəkildə addımlayaraq parad zamanı 50 bayraq yerləşdiriləcəyi platformaya aparan pillələrdə toplaşıb və tribunalarda yerlərini tutublar.

Stadiona Avropa Olimpiya Komitəsinin (AOK) bayrağı gətirilib. Onu səhnəyə Avropanın müxtəlif ölkələrindən olan səkkiz Olimpiya çempionu - Namiq Abdullayev (Azərbaycan), Lüsi Dekosse (Fransa), Servet Tazegül (Türkiyə), Nikkolo Kampriani (İtaliya), Keti Teylor (İrlandiya), Tomas Bimis (Yunanıstan), Kriztina Fazekas Zur (Macarıstan), Yelena Zamolodçikova (Rusiya) gətirib. Stadionda Uilyam Uoltonun "İmperiya tacı" marşı səslənib. AOK-un bayrağı Azərbaycan bayrağı ilə yanaşı ucaldılıb.

Stadiondakı tablolarda Avropa Nüvə Tədqiqatları Təşkilatının və orada işləyən alimlərin videosu və ixtiraları yayımlanıb. Avropa Nüvə Tədqiqatları Təşkilatı 60 ildən çoxdu ki, xalqları elm ətrafında birləşdirərək, sülhə çağırır.

Avropa və buğa stadionun üzərində uçduqda Leoş Yanaçekin "Ot basmış cığırlarla" əsəri Hokon Eustbönün ifasında səslənib. Bu bölmə I Avropa Oyunlarının rəsmi açılışını ifadə edib.

Daha sonra çıxışlar başlayıb. Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki sözü Azərbaycanın I xanımı, "Bakı-2015" Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya verib. Birinci xanım bütün Azərbaycan xalqını səmimi qəlbdən təbrik edib.

Sonra mikrofon önünə Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki keçib.

**(Ardı 2-ci səhifədə).**